# Xalqın qurtuluşu – dövlətçiliyin zəfəri

**Müasir Azərbaycan dövlətçiliyi tarixinin şanlı səhifələrindən olan Milli Qurtuluş Günü bu il olduqca əlamətdar bir vaxta düşüb: indi təkcə özünün ilk dəfə ən mötəbər idman yarışını keçirən Avropa qitəsinin deyil, bütün dünyanın gözü ölkəmizdə, onun gözəl paytaxtı Bakı şəhərindədir. Belə bir möhtəşəm idman bayramına Azərbaycanın ev sahibliyi etməsi banisi və qurucusu ulu öndər Heydər Əliyev olan müstəqil dövlətimizdə hökm sürən sabitliyə və əmin-amanlığa, dinamik və davamlı inkişafa, möhtərəm Prezident cənab İlham Əliyevin apardığı mükəmməl siyasətə dünya birliyinin və beynəlxalq təşkilatların etibar və etimadının növbəti bariz təzahürüdür.**

İnam və əminliklə deyə bilərik ki, Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, milli dövlətçiliyimizin tam bərpası və möhkəmləndirilməsi məhz Böyük Qurtuluşun, 1993-cü ilin 15 iyununda ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının nəticəsidir. Məhz buna görə də müstəqil dövlətçilik salnaməmizə Milli Qurtuluş Günü kimi qızıl hərflərlə həkk edilmiş bu tarix ölkəmizin indiki misilsiz inkişafının, sosial-iqtisadi, mədəni yüksəlişinin intibah mərhələsi bizim üçün qürur və iftixar mənbəyidir. Həmin gün uzun illər boyu xalqımızın həsrətlə gözlədiyi həqiqi qurtuluş, milli dövlətçiliyin zəfər günü oldu.

Xalqın gələcəyini, milli dövlətçiliyimizin taleyini düşünən vətənpərvər ziyalıları və ictimai fəalları öz ətrafında birləşdirən milli qurtuluş hərəkatı məhz unudulmaz rəhbərimiz Heydər Əliyevin öndərliyi ilə 1993-cü ilin 15 iyununda məntiqi qələbəsinə nail oldu. Ulu öndərin siyasi hakimiyyətə qayıdışı müstəqilliyini yenicə bərpa etsə də, yetmiş iki il əvvəlki kimi, onu itirmək təhlükəsi ilə üzləşən gənc suveren dövlətimizin taleyində dönüş anı oldu.

Tarixi zərurətdən yaranmış Qurtuluş hərəkatı cəmiyyətdən böyük dəstək alan ictimai-siyasi missiya, müstəqil dövlətçiliyimizin qorunması uğrunda gərgin və mütəşəkkil mübarizə idi. İyirminci əsrin son on illiyinin başlanğıcında SSRİ kimi nəhəng bir dövlətin süqutu nəticəsində xalqımızın əldə etdiyi müstəqillik həmin vaxt respublikada siyasi hakimiyyətdə olanları, sözün həqiqi mənasında, ağır və məsuliyyətli bir sınağa çəkdi. Lakin onların siyasi korafəhimliyi, milli mənafeləri dərk etməməsi tarixən Azərbaycanın ərazilərini qəsb etmək arzusu ilə yaşayan, hər fürsət düşdükcə xalqımıza qarşı açıq şəkildə soyqırımı siyasəti yeridən şovinist erməni təcavüzkarlarının fəallaşmasına, yüz minlərlə soydaşımızın zor və silah gücünə əvvəlcə Qərbi Azərbaycandan, az sonra isə Qarabağdan didərgin salınmasına gətirib çıxardı. Belə bir vaxtda siyasi hakimiyyətin asan bir şəkildə bir qrup başıpozuq, sözdə millət sevgisindən, vətənpərvərlikdən danışmaqlarına baxmayaraq işdə öz şəxsi mənafelərini güdən qaragüruhçulara verilməsi Azərbaycanı vətəndaş qarşıdurması, hətta qardaş qırğını təhlükəsi ilə üz-üzə qoydu. AXC-Müsavat cütlüyünün iqtidarda olduğu bir il müstəqil dövlətimizi ağır bəlalara düçar etdi ki, bu da xalqımızın kəskin etirazına səbəb oldu. Bu etiraz dalğasından məkrli qüvvələrin, naşı siyasətçilərin sui-istifadə etməsinə yol vermək Azərbaycanı uçuruma apara bilərdi. Qurtuluş hərəkatı məhz belə bir faciənin qarşısına sədd çəkdi. Bu, Heydər Əliyev kimi dünya şöhrətli siyasətçini, nadir düha sahibini və əsl millət cəfakeşini özünə lider seçən hərəkatın və onun qüdrətli öndərinin xilaskarlıq missiyası idi. Doğma xalqının önündə getməyi, onu dünyaya tanıtdırmağı Vətənə övladlıq borcu sayan və azərbaycanlı olmağı ilə daim fəxr edən Heydər Əliyev öz üzərinə götürdüyü bu missiyanı şərəflə yerinə yetirdi.

Ulu öndər Heydər Əliyevin bütün dünyada bu gün müasir, müstəqil Azərbaycan dövlətinin həqiqi memarı və yaradıcısı kimi qəbul edilməsi tarixi gerçəkliyə, təkzibolunmaz həqiqətə söykənir.

Ulu öndərin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasimdə möhtərəm Prezident İlham Əliyev demişdir: "Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur, onun memarıdır. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Azərbaycan onun rəhbərliyinin hər iki dövründə çox sürətlə inkişaf edib".

Biz—ulu öndərlə eyni dövrdə yaşamış, onun fövqəladə quruculuq istedadının bəhrələrini öz gözləri ilə görmüş insanlar yaxşı bilirik ki, Azərbaycanın müstəqil yaşamasının təkcə iqtisadi təməli deyil, həm də milli oyanışının əsasları məhz Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə qoyulmuşdur. XX-XXI əsrlərin qovuşuğunda isə Azərbaycan Respublikasının başəri dəyərlərə və humanizm prinsiplərinə sadiq müstəqil hüquqi-demokratik dövlət kimi yaranıb formalaşması böyük öndərimizin möhtəşəm siyasi fəaliyyəti, gərgin və fədakar əməyi sayəsində mümkün olmuşdur.

Müstəqil Azərbaycanın Prezidenti vəsifəsində Heydər Əliyevin 10 illik fəaliyyəti dövründə milli dövlətçiliyimizin güclənməsi və qüdrətlənməsi üçün görülən işlər ölkəmizi nəinki inkişaf və tərəqqi yoluna çıxardı, ümumən, ona regional təhlükəsizliyin və inkişafın təmin olunmasında liderlik rolu qazandırdı.

Dünyanın bir çox nüfuzlu siyasətçiləri dəfələrlə etiraf ediblər ki, Heydər Əliyev öz dövründə istər regional müstəvidə, istərsə də dünya miqyasında gedən proseslərə nüfuz və təsir etməyə qadir böyük şəxsiyyət və qüdrətli siyasətçi olmuşdur. Çoxəsrlik dövlətçilik ənənələrimizi yaşadan, milli və ümumbəşəri dəyərlərə söykənən müstəqil Azərbaycanın ilk Konstitusiyasının məhz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanıb qəbul edilməsi ilə ölkəmizdə hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməli qoyulmuşdur. Hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi yaradılmaqla qanunvericilik, icra və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Çoxpartiyalılıq əsasında demokratik seçkilər keçirilməsi təcrübəsinin formalaşdırılması, söz və mətbuat azadlığı, siyasi partiyalar və qeyri-hökumət təşkilatlarının maneəsiz fəaliyyəti üçün bütün imkanların yaradılması demokratik dövlət quruculuğu yolunda atılan mühüm addımlar olmuşdur.

Böyük öndərimizin hakimiyyəti dövründə dövlətimizin və xalqımızın əldə etdiyi nailiyyətlərin miqyası və əhəmiyyəti ölçüyəgəlməz dərəcədə genişdir. Möhtərəm Prezident İlham Əliyev bu barədə demişdir: "1993-2003-cü illər tarixdə sabitlik və inkişaf dövrü kimi qalacaq. Heydər Əliyevin strateji qərarları ölkəmizin strateji inkişaf istiqamətlərini müəyyən etdi. O vaxt bizim qarşımızda müxtəlif seçimlər var idi, müxtəlif dövlət quruluşu yarana bilərdi. Heydər Əliyevin xalq arasında nüfuzu o qədər yüksək idi ki, o, Azərbaycanda istənilən dövlət quruluşunu tətbiq edə bilərdi. Ancaq uzun illər Kommunist Partiyasının üzvü olan, Qanlı Yanvar hadisələrindən sonra isə Kommunist Partiyasının sıralarını tərk edən bir insan kimi o, demokratiya, inkişaf, bazar iqtisadiyyatı yolunu seçmişdir. Bu, onun üçün çox ciddi bir seçim idi. Çünki o, tamamilə fərqli bir ictimai-siyasi mühitdə formalaşmışdır... Onun müdrikliyi, gələcəyə strateji baxışları o seçimi şərtləndirdi və bu gün Azərbaycan azad, demokratik, hüquqi dövlətdir. Azərbaycanda bütün azadlıqlar var, siyasi islahatlar aparılır, demokratik inkişaf sürətlə gedir. Azərbaycan bu gün dünya miqyasında demokratiyanın inkişafı baxımından seçilən ölkələrdəndir".

Həmin dövrdə ulu öndər Heydər Əliyev özünün tarixi seçiminə uyğun olaraq müstəqil dövlətimizin hüquq sistemini formalaşdırmış, milli dövlətçiliyimizin sarsılmaz sütunlarından olan, beynəlxalq standartların tələblərinə cavab verən, qabaqcıl dünya təcrübəsini əxz etmiş çevik və mübariz hüquq-mühafizə və təhlükəsizlik sistemi yaratmışdır. Ulu öndərin təşəbbüsü və bilvasitə rəhbərliyi ilə həyata keçirilən islahatlar sayəsində hüquqi-demokratik dövlət quruculuğunda fəal rol oynayan hüquq-mühafizə sistemində prokurorluq orqanlarının da öz layiqli yeri vardır. Bu mühüm təsisatın səmərəli fəaliyyəti, dövlətçiliyimizə şərəflə qulluq edən prokurorluq işçilərinin maddi və sosial vəziyyəti ümummilli liderimizin daimi diqqət və qayğısı ilə əhatə edilmişdir.

Bu bir faktdır ki, məhz ulu öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda prokurorluq orqanlarının demokratik məzmunda tamamilə yenidən formalaşdırılması, prokurorluğun statusunun, cəmiyyətdə yerinin və rolunun dəqiq müəyyənləşdirilməsi, həmçinin, beynəlxalq standartlara uyğun qanunvericilik bazasının yaradılması mümkün olmuşdur. Azərbaycan Prezidenti kimi Heydər Əliyevin imzaladığı 17 iyul 1998-ci il tarixli sərəncamla hər il oktyabrın 1-i prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilir. Azərbaycanın milli mənəvi dəyərlərinə və tarixi keçmişinə dərin hörmət və ehtiramın ifadəsi olan bu sərəncamda respublika prokurorluq orqanlarının 80 illik yubileyinin qeyd edilməsi, həmçinin prokurorluğa dövlət qayğısı öz əksini tapmışdır. Həmin ilin noyabrında Azərbaycan prokurorluq orqanlarının 80 illik yubileyi və bu orqanlarda çalışanların peşə bayramı münasibətilə keçirilən tədbirdə möhtərəm Heydər Əliyev şəxsən iştirak edərək, proqram xarakterli nitq söylədi, bizə öz dəyərli tövsiyə və məsləhətlərini verdi. "Mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram",—deyən müdrik rəhbərin etimadına layiq olmağı biz prokurorluq işçiləri özümüzə daim şərəfli borc saymışıq.

Möhtərəm Heydər Əliyevin 2000-ci il aprelin 26-da respublika prokurorluq orqanlarının rəhbər işçiləri ilə keçirdiyi görüş bu orqanın fəaliyyətində yeni mərhələnin başlanması ilə əlamətdar oldu. Müdrik rəhbərimiz prokurorluqda yaranmış vəziyyəti təhlil edərək, bu mühüm dövlət orqanında sağlam mənəvi-psixoloji mühitin bərqərar edilməsi, struktur islahatlarının dərinləşdirilməsi barədə dəyərli göstərişlər verdi. "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli Prezident sərəncamı isə prokurorluq işçilərinin şərəfli xidmətinə göstərilən dövlət qayğısının növbəti təzahürü idi. Sərəncama əsasən, prokurorluq işçilərinin əmək haqqı əhəmiyyətli dərəcədə artırıldı, onların maddi və sosial təminatının səviyyəsi beynəlxalq standartlara uyğunlaşdırıldı.

Ümummilli liderimizin yaratdığı dövləti daha da gücləndirmək istiqamətində ulu öndərin strategiyasını uğurla reallaşdıran möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasi xətt öz bəhrəsini verir. Son 14 ildə Azərbaycan bütün sahələrdə—istər demokratikləşmə və dövlət quruculuğunda, istərsə də sosial-iqtisadi inkişafda möhtəşəm nailiyyətlər əldə etmişdir.

Dövlətimizin başçısı yeni dövrü səciyyələndirərkən demişdir: "Bu gün Azərbaycan inkişafdadır. Bu gün müstəqil dövlətimiz özünün ən uğurlu dövrünü yaşayır. Çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bu gün Azərbaycanda aparılan islahatlar xalqımızın gələcək inkişafını təmin edir. Azərbaycan dövləti çox möhkəm dayaqlar üzərində qurulubdur. Milli mənəvi dəyərlər birinci şərtdir. Biz öz milli mənəvi dəyərlərimizə sadiqik və onları hər şeydən üstün tuturuq. Bu, möhkəm təməldir. Bizim milli ideologiyamız ulu öndər Heydər Əliyev tərəfindən formalaşıbdır. Biz bunu, bu ideologiyanı inkişaf etdiririk, zənginləşdiririk".

Ulu öndərimizin milli inkişaf strategiyasının yeni dövrün tələblərinə uyğun şəkildə zənginləşdirilərək uğurla həyata keçirilməsi həm dövlətimizin qüdrətlənməsində, həm də xalqımızın rifahının yüksəlməsində mühüm rol oynayır. Bu amil uzun illərdən bəri xalqımız üçün ağır bəlaya çevrilmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə də təsirsiz qalmır. Möhtərəm Prezidentimiz İlham Əliyevin ən yüksək tribunalardan dəfələrlə bəyan etdiyi kimi, sülh danışıqları bir nəticə verməsə, Azərbaycanın güclü və qüdrətli ordusu torpaqlarımızı işğaldan azad edəcəkdir.

Azərbaycanda son illər həyata keçirilən hüquqi islahatlar vüsətli sosial-iqtisadi inkişafa da güclü təkan verir. Prezidentimiz İlham Əliyevin təşəbbüsü ilə prokurorluq orqanlarının cəmiyyətdə rolunun artırılması və bu orqanın fəaliyyətinin müasir dövrün tələblərinə uyğun şəkildə keyfiyyətcə yeni səviyyədə qurulması istiqamətində məqsədyönlü addımlar atılmışdır.

Belə ki, dövlətimizin başçısının 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" uğurla icra edilmişdir. Nəticədə prokurorluq orqanlarının fəaliyyəti və strukturu təkmilləşdirilmiş, kadr potensialı gücləndirilmiş, prokurorların peşəkarlığı artırılmış, prokurorluğun maddi-texniki bazası möhkəmləndirilmiş, işçilərin sosial müdafiəsi daha da gücləndirilmişdir.

Azərbaycan prokurorluğunun 90 illik yubileyi də 2008-ci ildə geniş qeyd edilmiş, dövlətimizin başçısı cənab İlham Əliyev prokurorluq əməkdaşlarını və veteranlarını yubiley münasibətilə təbrik etmişdir. Möhtərəm Prezidentimiz, həmçinin, qanunçuluğun təmin edilməsində, cinayət işləri üzrə ibtidai istintaqın aparılmasında, cinayətlərin açılmasında və məhkəmədə dövlət ittihamının müdafiəsində yüksək peşəkarlıq göstərdiklərinə, xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə prokurorluğun bir qrup əməkdaşını orden və medallarla təltif etmişdir.

Ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində də prokurorluq orqanlarının üzərinə mühüm vəzifələr qoyulmuşdur. Belə ki, 2004-cü il 3 mart tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə dövlətimizin başçısının sərəncamına əsasən, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi yaradılmışdır. Bundan başqa, 18 mart 2011-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Prokurorluq haqqında" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarına dəyişikliklər edilərək prokurorluğa əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətləri də verilmişdir ki, bu da yüksək etimadın daha bir nümunəsidir.

Dövlətimzin və onun başçısının hərtərəfli dəstəyi ilə həyata keçirilən islahatların nəticəsində Azərbaycan Prokurorluğu müasir standartlar səviyyəsində normativ hüquqi bazası, demokratik məzmunlu fəaliyyət prinsipləri və iş metodları olan sivil dövlət təsisatı kimi uğurla fəaliyyət göstərir.

Mövcud qanunvericiliyi, Baş Prokurorluğun əmr və göstərişlərini yerinə yetirən prokurorluq işçiləri qanunun aliliyinin, insan hüquq və azadlıqlarının real təmin olunması, cinayətkarlıq və hüquq pozuntularına qarşı mübarizənin səmərəliliyinin artırılması üçün daim səylə çalışırlar.

Bakıda keçilən Birinci Avropa Oyunları kimi böyük idman bayramı bizim də qəlbimizi fərəh hissi ilə doldurur. Ölkəmizin bütün hüquq-mühafizə orqanları kimi prokurorluq da bu möhtəşəm bayramın yüksək səviyyədə, tam əmin-amanlıq və təhlükəsiz bir şəraitdə keçməsi üçün səfərbər olunmuşdur.

Qurtuluş hərəkatının möhtəşəm zəfərinin 22-ci ildönümündə biz bir daha tarixi nailiyyətlərimizə nəzər yetirib, ulu öndər Heydər Əliyev ideyalarının Azərbaycanda qətiyyət və ardıcıllıqla gerçəkləşməsindən qürur duyuruq. Bu ideyalar xalqımızın və dövlətimizin yüksəliş yolunu daim işıqlandıracaqdır.

**Akşin ZİYADOV,**
**Nizami rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**